

# ZÜMRÜD ŞƏBƏKƏSİ

## AVROPANıN TƏBİİ MÜHİTLƏRİNİN MÜHAFİZƏ VASİTƏSİ

Funded
by the European Union

EUROPEAN UNION

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

# NƏ ÜÇÜN TƏBİİ MÜHİTLƏRİ MÜHAFİZƏ ETMƏLİYİK?

Biomüxtəliflik Avropada və bütün dünyada sürətlə azalmaqdadır. Növlərin yox olmasının faiz göstəricilərinin ilkin faiz göstəricisindən 100 və 1000 dəfə çox olduğu və yeni növlərin müəyyən edilməsi göstəricisindən daha yüksək olduğu müəyyən edilmişdir. Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyin verdiyi məlumatlara görə Avropadakı məməlilərin 15%-nin quşların 13%-nin, şirin su balıqlarının 37%-nin və amfibiyaların 23%-nin nəslnin kəsilməsi təhlükəsi mövcuddur. Biomüxtəliflik xüsusən də həqiqi dəyəri və təklif etdiyi ekolsistem xidmətlərinəgörə mühafizə edilməli və gələcək nəsillərə ötürülməli olan təbii irsdir. (məsələn, ərzaq təminatı, havanın keyfiyyəti, suyun təmizlənməsi, tozlanma və ya yenidən bərpa). Təbii mühitin məhv olması, çirklənmə, təbii ərazilərin həddindən çox istifadəsi və süni mənzərələrin yaradılması biomüxtəlifliyin itməsinin başlıca səbəblərindəndir. Buna görə də bu fenomenlərin qarşısını almaq və beləliklə vəhşi flora və fauna növlərini mühafizə etmək üçün təbii mühitlərin qorunması həyati əhəmiyyət kəsb edir.





## TƏBİİ MÜHİTLƏRİN MÜHAFİZƏSİ İSTİQAMƏTİNDƏ AVROPA ŞURASI TƏRƏFİNDƏN HANSI VASİTƏLƏR MÜƏYYƏN EDILMIŞDIR?

Avropada təbii mühitlərinin mühafizəsi üçün Avropa Şurası iki əsas vasitə müəyyən etmişdir:

- 1965-ci ildə Avropa üçün çox əhəmiyyətli olan, adekvat şəkildə qorunan və nümunəvi şəkildə idarə edilən təbii və yarımtəbii ərazilər üçün təltif edilən beynəlxalq mükafat – Qorunan ərazilər üçün Avropa diplomu.
- 1979-cu ildə "Bern Konvensiyası" kimi tanınan Avropada vəhşi flora və faunanın və təbii mühitlərin mühafizəsi Konvensiyası. Konvensiya vəhşi flora və faunanın və onların təbii mühitlərinin mühafizəsini nəzərdə tutan və həmçinin bu sahədə dövlətlər arasında əməkdaşlığı təşviq edən məcburi beynəlxalq hüquqi sənəddir.

1989-cu ildə Bern Konvensiyasını imzalayan tərəflər Avropada təbii mühitlərin mühafizəsi üçün xüsusi vasitəni yaratdı: Zümrüd Şəbəkəsi.

### ZÜMRÜD ŞƏBƏKƏSİ RƏQƏMLƏRLƏ

**2017-ci il üçün şəbəkə əhatə edir:**

- 16 ölkədən 3500 namizəd və ya tam təsdiq edilmiş Zümrüd ərazisindən,
- təxminən 700 000 km² ərazidən,
- iştirak edən ölkələrin ərazilərinin təxminən 12,5%-dən.





## ZÜMRÜD ŞƏBƏKƏSİ NƏDİR?

Zümrüd Şəbəkəsi Xüsusi Mühafizə Əhəmiyyətli Ərazilərdən (XMƏƏ) ibarət olan ekoloji şəbəkədir.

### EKOLOJİ ŞƏBƏKƏ

Ekoloji şəbəkə kimi Zümrüd Şəbəkəsi idarəetmə, monitorinq və hesabat tədbirlərinin tətbiq edildiyi bir-birinə bağlı məntiqi ərazilər sistemidir. Bern Konvensiyası çərçivəsində yaradılmış bu şəbəkənin məqsədi sahələrdə xüsusi mühafizə tədbirləri (məsələn, şahin və ya hərəkət edən sahil quşları) tələb edən növlərinin və təbii mühitlərinin uzun müddətli mühafizəsini təmin etməkdir.

### XÜSUSİ MÜHAFİZƏ ƏHƏMİYYƏTLİ ƏRAZILƏRDƏN İBARƏT OLAN EKOLOJI ŞƏBƏKƏ

Zümrüd Şəbəkəsi xüsusi mühaifizə əhəmiyyətli ərazilərdən (XMƏƏ) təşkil olunub.

Bunlar növlərin və mühitlərin uyğun mühafizə statusunda saxlanılmasına və bərpa edilməsinə yardım edə bilən həqiqi dəyərlərin olduğu ərazilərdir .

- Bern Konvensiyası ilə ciddi şəkildə mühafizə edilən təhlükə altında olan, endemik və köçəri növlər;
- təhlükə altında olan və digər yaşayış mühitləri və həmçinin müxtəlif növ müxtəliflliyi olan mühitlərin bütün mozaikaları;
- Avropa ölkələrinin ümumi irsi olan miqrasiya edən növlər.

Bern Konvensiyasını imzalayan tərəflər olan ölkələrin müəyyən etdiyi XMOƏ-lər növlərin və mühitlərin obyektiv mühafizə meyarına cavab verdiyi elmi olaraq qiymətləndirilən ərazilərdir. Bu, qiymətləndirmə

- növlər və yaşama mühitləri sözügedən ərazilər içində yayılma sahələri, müxtəliflik və xüsusi mühafizə ehtiyacları baxımından kifayət qədər təmsil edilirsə;
- ərazilərdə ümumi milli qaynaqlarla müqayisədə mühit ərazilərinin və növlərin sayının böyük proporsiyasını əhatə edirsə;

# ZÜMRÜD ŞƏBƏKƏSİ OLARAQ NECƏ İŞLƏYİR?

## TƏŞKİLAT PROSESİ MƏRHƏLƏLƏRİ

Zümrüd Şəbəkəsinin təşkili mürəkkəb və vaxt alan prosesdir. O, üç mərhələyə bölünür:

### 1-ci mərhələ

- Milli qaynaqların qiymətləndirilməsi və mühafizə edilməli olan növlərin və mühitlərin müəyyənləşdirilməsi
- Mümkün Zümrüd Şəbəkəsi zonalarınnın seçilməsi

### 2-ci mərhələ

- Zümrüd Şəbəkəsi tələblərinə cavab verdiklərini öyrənmək üçün namizəd ərazilərinin elmi cəhətdən qiymətləndirilməsi
- Lazım olarsa əlavə ərazilərin təklif edilməsi
- Bern Konvensiyasının Daimi Komitəsi tərəfindən qəbul edilmələri üçün namizəd ərazilərin təqdim edilməsi

### 3-cü mərhələ

- Qəbul edimiş Zümrüd ərazilərinin dövlət tərəfindən təyin edilməsi
- Təyin edilmiş hər ərazi üçün idarəetmə, monitorinq və hesabat tədbirlərinin tətbiq edilməsi

Üç mərhələyə bölünməsinə baxmayaraq Zümrüd Şəbəkəsinin təşkili dövri olan prosesdir. Məsələn, təklif edilən ərazilərin siyahısının kifayət etməməsi, elmi biliyin təkmilləşdirilməsi və ya təbiətdə baş verən dəyişikliklər yeni təkliflərin edilməsi ehtiyacı ilə nəticələnə bilər və beləliklə prosesin başlanğıcına qayıdıla bilər.

## ZÜMRÜD ŞƏBƏKƏSİNİN ICRA TƏQVİMİ

2010-cu ildə Bern Konvensiyasının Daimi Komitəsi Zümrüd Şəbəkəsinin təbiqi ilə bağlı icra təqvimi qəbul edib. Bu təqvim hər bir ölkə üçün şəbəkənin təşkilat prosesinin müxtəlif mərhələlərinin başa çatdırılmasındakı dönüş nöqtələrini və müddətləri müəyyən edir.

Ümumi məqsəd Zümrüd Şəbəkəsinin 2020-ci ilə qədər operativ şəkildə işə salınmasıdır.

# ZÜMRÜD ŞƏBƏKƏSİ HARADA YARADILIR?

Zümrüd Şəbəkəsinın əsası Bern Konvensiyasında imzalayan tərəflər və müşahidəçi dövlətlər arasında qurulmuşdur. 2017-ci ildə bunlara Avropa İttifaqı (Aİ) və onun 28 üzv dövləti, digər 19 Avropa ölkəsi və 4 Afrika dövləti daxil idi.





## AVROPA ITTIFAQıVƏ ONUN ÜZV DÖVLƏTLƏRİ

- Aİ və üzv dövlətləri Konvensiya qarşısındakı öhdəliklərini və onun Zümrüd Şəbəkəsini özlərinə aid ekoloji şəbəkə vasitəsilə yerinə yetirir - Natura 2000 Şəbəkəsi

- Aİ-nin üzv dövləti olan imzalayan tərəflər üçün Zümrüd Şəbəkəsi zonaları Natura 2000-in zonalarıdır. Bu iki şəbəkə bir-birini tam şəkildə tamamlayır.

## AVROPA İTTIFAQıNıN ÜZVÜ OLMAYAN AVROPA DÖVLƏTLƏRİ

- Zümrüd Şəbəkəsi Bern Konvensiyanı imzalayan tərəflər və Aİ-nin qonşuluğundakı müşahidəçi dövlətlər arasında yaradılmışdır.

- Zümrüd Şəbəkəsi Avropanın təbiəti mühafizə normalarını Aİ sərhədlərindən kənarda yayır. Bundan əlavə, bu şəbəkənin yaradılması i Aİ-nın üzvlüyünə namizəd olan dövlətlərin Natura 2000 -in tətbiq edilməsində və beləcə Aİ-na daxil olmaları üçün hazırlanmalarında onları dəstəkləyir.

- Bern Konvensiyasını imzalayan 16 tərəf və müşahidəçi dövlətlər Zümrüd Şəbəkəsinin yaradılmasında fəal şəkildə fəaliyyət göstərib. Şərqi Avropanın və Cənubi Qafqazın 7 ölkəsində Aİ/Avropa Şurasının birgə proqramı həyata keçirilib. Bu proqram Zümrüd Şəbəkəsinin təşkil edilməsinə maliyyə dəstəyi göstərib. Bu proqram 2012-2016-cı illəri Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Russiya Federasiyasında həyata keçirilib.

## AFRİKA DÖVLƏTLƏRİ

- Zümrüd Şəbəkəsinin Afrikaya qədər uzadılması köçəri növlərin qorunması üçün vacibdir. Bu, xüsusən Avropa üçün əhəmiyyətli olan köçəri növlərin qorunma statusundakı mənfi tendensiyanı dəyişdrməyə kömək edə bilər. Bu, fəaliyyət həmçinin sözügedən növlərin genetik müxtəlifliyini və təbii mühitlərini mühafizəsinə də yardım edə bilər.

- Mərakeş Krallığı Zümrüd Şəbəkəsini yaradılmasında fəal iştirak edən ölkələrdən biridir.

## ƏLAQƏ

**İva Obretenova**
Bern Konvensiyasının Katibliyi
DG II – Demokratiya
F-67075 Strasburq
Tel.: +33 (0)3 90 21 58 81
E-mail: Iva.Obretenova@coe.int

**Rəşad Allahverdiyev**
Ekologiya və Təbii Sərvətlər Nazirliyi
Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan
Təbiət Ərazilərinin İnkişafı
Departamentinin baş mütəxəsisi
Ünvan B. Ağayev küç 100 a, Bakı, Azərbaycan
Tel/Faks +994124927369
E-mail: allahverdiyev.r@yandex.ru

**www.coe.int/emerald**
**www.coe.int/bernconvention**

www.facebook.com/bernconvention

PREMS 060117 – © Council of Europe – April 2017
Photos: Agency for Protected Areas of Georgia; Ivana d'Alessandro; Aleksandrova; Merike Linnamagi; Rashad Allahverdiyev; Valentino Mastrella.

AZE

The Council of Europe is the continent's leading human rights organisation. It comprises 47 member states, 28 of which are members of the European Union. All Council of Europe member states have signed up to the European Convention on Human Rights, a treaty designed to protect human rights, democracy and the rule of law. The European Court of Human Rights oversees the implementation of the Convention in the member states.

**www.coe.int**

The European Union (EU) is a unique economic and political partnership between 28 democratic European countries. Its aims are peace, prosperity and freedom for its 500 million citizens – in a fairer, safer world. To make things happen, EU countries set up bodies to run the EU and adopt its legislation. The main ones are the European Parliament (representing the people of Europe), the Council of the European Union (representing national governments) and the European Commission (representing the common EU interest).

**http://europa.eu**

Funded
by the European Union

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe